https://doi.org/10.59849/2710-0820.2026.1.353

# TƏDQİQATDA CİNS VƏ GENDER BƏRABƏRLİYİ: SAGER QAYDALARININ ƏSASLANDIRILMASI VƏ İSTİFADƏSİ ÜÇÜN TÖVSİYƏLƏR*

**Müəlliflər:**
Shirin Heidari[1], Thomas F. Babor[2], Paola De Castro[3], Sera Tort[4] and Mirjam Curno[5]

**Tərcümə müəllifləri:**
akademik İradə Hüseynova
*Azərbaycan Milli Elmlər Akademiyası*
*i_guseinova@mail.ru*
*ORCID: 0000-0003-3336-2203*

fil.ü.f.d Səbuhi Qəhrəmanov
*Azərbaycan Milli Elmlər Akademiyası*
*gahramanovsabuhi@gmail.com*
*ORCID: 0009-0008-9817-0409*

European Association of Science Editors

Xülasə

**Giriş:** Cins və gender müxtəlifliyi ümumi elmi kommunikasiyada olduğu kimi, tədqiqatın tərtibində, araşdırma tətbiqində və elmi hesabatda çox vaxt nəzərə alınmır. Bu çatışmazlıq tədqiqat nəticələrinin ümumiləşdirilmə səviyyəsini, onların klinik praktikada tətbiq imkanlarını, xüsusilə qadınlar, həmçinin kişilər üçün də məhdudlaşdırır. Bu məqalə müxtəlif elmi sahələr üzrə tədqiqatlarda cins və gender amillərinin təqdim olunmasına daha sistemli yanaşmanı təşviq etmək məqsədilə hazırlanmış beynəlxalq təlimatların əsaslandırılmasını təsvir edir.

**Metodlar:** Doqquz ölkəni təmsil edən 13 ekspertdən ibarət panel sözügedən təlimatları bir sıra telekonfranslar, konfrans təqdimatları və 2 günlük seminar vasitəsilə təkmilləşdirdi. Elmi nəşriyyat sahəsində cins və gender siyasətinə dair ədəbiyyat araşdırması aparılmış, həmçinin jurnal redaktorları, alimlər və beynəlxalq nəşriyyat ictimaiyyətinin digər nümayəndələri arasında 716 nəfərin iştirakı ilə internet sorğusu keçirilmişdir.

**Nəticələr:** Araşdırmalarda cins və gender bərabərliyi (Sex and Gender Equity in Research:SAGER) təlimatları tədqiqatın planlaşdırılması, məlumatların təhlili, nəticələrin təqdim edilməsi və onların şərhi zamanı cins və gender məlumatlarının necə təqdim olunmasını müəyyən edən geniş təlimatlar toplusudur.

**Yekun:** SAGER təlimatları, əsasən, müəlliflərə elmi məqalələrin hazırlanmasında rəhbərlik etmək üçün nəzərdə tutulsa da, eyni zamanda elmin “nəzarətçisi” kimi çıxış edən redaktorlar üçün də faydalıdır və redaksiya prosesinin ayrılmaz hissəsi kimi cins və gender aspektlərinin bütün əlyazmalara inteqrasiyasına imkan yaradır.

**Açar sözlər:** cins, gender, təlimatlar, SAGER, elmi tədqiqat, elmi nəşriyyat, gender qərəzliliyi, bərabərlik

---

[*] Orijinal mənbə: *Heidari et al. Sex and Gender Equity in Research: rationale for the SAGER guidelines and recommended use. Research Integrity and Peer Review (2016) 1:2 DOI 10.1186/s41073-016-0007-6*

**Giriş**

Cins və gender sağlamlıq və rifahın mühüm müəyyənedici amilləridir. Cins insanlarda və heyvanlarda xromosomlar, gen ifadəsi, hormon funksiyaları və reproduktiv/cinsi anatomiya kimi fiziki və fizioloji xüsusiyyətlərlə əlaqəli bioloji əlamətlər toplusunu ifadə edir (Coen S, 2012). Cins, adətən qadın və kişi kimi təsnif olunur, lakin cinsi müəyyən edən bioloji əlamətlərdə və həmin əlamətlərin ifadə olunma formasında müxtəliflik mövcuddur. Gender isə qadın, kişi və gender baxımından müxtəlif şəxslərin sosial olaraq formalaşmış rollarını, davranışlarını və kimliklərini ifadə edir (Coen S, 2012). O, insanların özlərini və başqalarını necə qavradıqlarına, necə davrandıqlarına, qarşılıqlı əlaqələrinə, eləcə də cəmiyyətdə güc və resursların bölüşdürülməsinə təsir göstərir. Gender çox vaxt yanlış olaraq ikili (qadın/kişi) kateqoriya kimi qəbul edilir. Əslində, gender kimlikləri və ifadələri spektr təşkil edir və fərdlərin özlərini necə identifikasiya və genderlərini necə ifadə etdiklərini müəyyən edir. Cins, gender və əlaqəli anlayışların mənalarını izah etmək üçün terminlər lüğəti Əlavə 1-də təqdim olunmuşdur. Cins və gender arasındakı qarşılıqlı əlaqə sağlamlıq və rifaha müxtəlif yollarla təsir göstərir. Hər iki amil ətraf mühit və peşə risklərinə, riskli davranışlara, səhiyyə xidmətlərinə çıxış imkanlarına, tibbi yardım axtarma davranışına, səhiyyə xidmətlərindən istifadəyə, bu xidmətlərlə bağlı subyektiv təcrübəyə və sonda xəstəliklərin yayılmasına və müalicə nəticələrinə təsir göstərir. Bundan əlavə, yaxşı məlumdur ki, dərman vasitələrinin farmakokinetikası və farmakodinamikası cinslər arasında fərqlənir, bu da arzuolunmaz müxtəlif təsirlərə səbəb olur və müalicə nəticələrinə əlavə təsir göstərir. Beləliklə, cins və gender sağlamlığın mühüm müəyyənedici amilləridir (Hoffman DE, 2001).

**Tədqiqatın aparılmasında cins və gender qərəzliyi**

Əksər tədqiqatların sahələrində cins və genderin əhəmiyyəti qəbul olunsa da, elmi diqqətin, əsasən, yalnız bir cins və ya gender kateqoriyasına yönəlməsi, həmçinin cins üzrə ayrımın digər canlı orqanizmlərə tətbiq olunmadığı barədə yanlış təsəvvür səbəbindən mühüm bilik boşluqları hələ də qalmaqdadır (Institute of Medicine (IOM), 2012) (Geller SE, 2011) (Leopold SS, 2014) (Clayton JA, 2014). İnsan subyektləri üzərində aparılan tədqiqatlarda qadınların təmsil olunmasındakı boşluq geniş sənədləşdirilmişdir (Coen S, 2012). Cochrane Reviews bazasına daxil edilmiş ürək-damar müalicəsi üzrə klinik sınaqların icmalı göstərir ki, 258 klinik tədqiqatda iştirak edənlərin yalnız 27 %-ni qadınlar təşkil etmişdir (Kim ESH, 2009). Daha da əhəmiyyətlisi odur ki, həm kişilərin, həm də qadınların cəlb olunduğu tədqiqatların yalnız üçdə birində gender əsaslı analiz aparılmışdır (Johnson JL, 2009). 10 il ərzində Pain jurnalında dərc olunmuş heyvan tədqiqatlarının 79 %-dən çoxu yalnız erkək fərdləri əhatə etmiş, cəmi 4 %-də isə cins fərqləri araşdırılmışdır (Greenspan JD, 2007). Qadınların tədqiqatlarda yetərincə təmsil olunmaması mənfi nəticələrə səbəb ola bilər. 1997-2001-ci illər arasında ABŞ bazarından çıxarılan on dərman vasitəsindən səkkizi qadınlara kişilərlə müqayisədə daha çox zərər vermişdir (Office, U.S. Government Accountability, 2001). Daha yaxın dövrdə ABŞ Qida və Dərman Administrasiyası (FDA) zolpidemin qadınlarda daha yüksək risklərə səbəb olması ilə əlaqədar təhlükəsizlik bildirişi yayaraq qadınlar üçün dozanın yarıya endirilməsini tövsiyə etmişdir (Food and Drug Administration, 2013). Bütün bu hallarda cins və gender əsaslı təhlillərin aparılması dərmanların təsdiqlənməsindən əvvəl kişi və qadınlar üçün dozalanma və tətbiq imkanlarını düzgün müəyyənləşdirmək üçün kifayət qədər məlumat verə bilərdi. Cins və gender əsaslı təhlillərin aparılmaması müxtəlif elm sahələrində müşahidə olunur. Məsələn, mühəndislik sahəsində avtomobil oturacaqlarının hazırlanması zamanı kişi və qadınların fiziologiyası və anatomiyası arasındakı fərqlərin nəzərə alınmaması qadın sərnişinlərdə boyun zədələnməsi riskinin kişilərlə müqayisədə daha yüksək olmasına gətirib çıxarmışdır (Linder A, 2013) (Jakobsson L, 2004). "Gender fərqi" (gender gap) termini daha çox qadınlara tətbiq olunsa da, cins və gender əsaslı təhlillərin kişilərin sağlamlığının daha yaxşı başa düşülməsinə verdiyi töhfə də nəzərə alınmalıdır. Tədqiqatlarda kişi və qadın subyektlərin təmsilçiliyinin art-

masına, həmçinin cins və gender üzrə spesifik məlumatların daha geniş təqdim olunmasına baxmayaraq, bu nümunələr mövcud siyasətin kifayət qədər icra olunmadığını göstərir (Institute of Medicine (IOM), 2012). Cins və gender fərqlərinə marağın olmaması yalnız zərərli nəticələr doğurmur, eyni zamanda innovasiya imkanlarının qaçırılmasına da səbəb olur. Əsas fərq və oxşarlıqların dərk edilməsi, texnoloji yeniliklərin tətbiq imkanlarının, mənimsənilməsinin və təsirinin araşdırılması, eləcə də koqnitiv dəyişkənliyin daha dərindən öyrənilməsi, şübhəsiz ki, daha innovativ yanaşmaların və cəmiyyətin ehtiyaclarına daha yaxşı cavab verən həllin formalaşmasına gətirib çıxaracaqdır.

**Jurnal redaktorlarının rolu və redaksiya siyasəti**

Redaktorlar elmin keçikçiləri kimi mühüm rol oynayırlar və bu rol tədqiqatın aparılmasına təsir göstərən etik çərçivənin formalaşdırılmasını da əhatə edir. Nəşr olunan məlumatların həcminin sürətlə artdığı şəraitdə, nəşrlərin keyfiyyəti ilə bağlı narahatlıqlar jurnal redaktorlarını, nəşriyyatları və peşəkar assosiasiyaları daha ətraflı təlimatların tətbiqinə vadar etmişdir. Hazırda jurnal tələblərinin də təsiri ilə insan və heyvanlar üzərində aparılan tədqiqatlarda etik baxış prosedurları demək olar ki, universal şəkildə tətbiq olunur. Redaksiya siyasətinin tələblərə uyğunluğa təsiri klinik sınaqların qeydiyyatı (Zarin DA, 2005) və PRISMA təlimatlarının tətbiqindən sonra sistematik icmalların təqdim olunması müxtəlif sahələrdə aydın şəkildə göstərilmişdir (Panic N, 2013). Digər bir nümunə CONSORT bəyanatının tədricən tətbiq olunmasıdır ki, bu da randomizə olunmuş nəzarətli sınaqların hesabatlılığının yaxşılaşmasına səbəb olmuşdur (Schulz KF, 2010) (Plint AC, 2006). CONSORT və PRISMA-dan sonra bir çox digər hesabatvermə təlimatları, o cümlədən heyvanlar üzərində aparılan tədqiqatlar üçün ARRIVE təlimatları hazırlanmışdır (Kilkenny C, 2010). Siyasətlərin tətbiqi və icrasının hələ də mühüm problem olaraq qalmasına baxmayaraq, jurnallar cins və gender üzrə spesifik təhlillərin müntəzəm olaraq təşviqi vasitəsilə təqdim olunan məlumatların keyfiyyəti və şəffaflığının artırılmasında mühüm rol oynaya bilərlər. 2011-ci ildə ABŞ Tibb İnstitutu tərəfindən təşkil olunmuş "Elmi tədqiqatlarda cinsə görə spesifik hesabat" mövzusunda keçirilən seminar zamanı jurnalların və jurnal redaktorlarının genderə həssas hesabatını yaxşılaşdırmaq üçün nəzərə alınmalı olan bir sıra əsas məsələlər müəyyən edilmişdir (Institute of Medicine (IOM), 2012). Bunlara cins üzrə spesifik məlumat təhlillərinin məqsədəuyğunluğu, eləcə də tədqiqatın dizaynı və nəticələrin təqdim olunmasında cins və gender amillərinin nəzərə alınmasını tövsiyə edən jurnal siyasətlərinin olmaması daxildir. Mövcud dəlillərə əsaslanaraq, ABŞ Tibb İnstitutunun komitəsi 2010-cu ildə International Committee of Medical Journal Editors və digər redaktorlara klinik tədqiqatların nəticələrini təqdim edən bütün məqalələrdə məlumatların kişi və qadınlar üzrə ayrı-ayrılıqda təhlilini nəzərdə tutan təlimatın qəbul edilməsini tövsiyə etmişdir. Sonrakı dövrdə International Committee of Medical Journal Editors cins və gender üzrə hesabatlılıqla bağlı daha gücləndirilmiş tövsiyələr dərc etmiş, tədqiqatçılara bütün tədqiqat növlərində reprezentativ populyasiyaların daxil edilməsini, cins və digər müvafiq demoqrafik dəyişənlər üzrə təsviri məlumatların təqdim olunmasını və nəticələrin cins üzrə stratifikasiyasını tövsiyə etmişdir (International Committee of Medical Journal Editors, 2014). Tədqiqatlarda kifayət qədər kişi və qadınların (həmçinin digər subpopulyasiyaların) adekvat şəkildə daxil edilməsi, eləcə də məlumatların müvafiq təhlili və tədqiqat nəticələrinin şəffaf və tam şəkildə hesabatlandırılması sponsorlar, tədqiqatçılar, rəyçilər və redaktorlar arasında birgə və koordinasiyalı səy tələb edir (listed, 2011). Redaktorlar, adətən, tədqiqat prosesi başa çatdıqdan və məlumatlar təhlil edildikdən sonra, yəni prosesin son mərhələsində iştirak etsələr də, cins və gender üzrə hesabatın effektiv, şəffaf və tam şəkildə təmin olunmasında mühüm rol oynaya bilərlər. Son illərdə elmi tədqiqatlarda cins və gender məsələləri ilə bağlı bir sıra icmal müəllifləri müəyyən edilmiş problemlərin həlli üçün ən effektiv yanaşmalara dair tövsiyələr irəli sürmüşlər. Doull et al. (Doull M R. V., 2010) (Doull M W. V., 2014) qərarvermə üçün sübutların toplanması, sintezi və təhlilinin təkmilləşdirilməsi məqsədilə sistematik icmalların metodologiyasında cins və gender

əsaslı analizlərin uyğunlaşdırılmasını təklif etmiş, həmçinin sistematik icmallar üçün qiymətləndirmə aləti hazırlamış və onu ilkin tədqiqatların və yeni tədqiqat protokollarının qiymətləndirilməsi üçün uyğunlaşdırmışlar (Doull M W. V., 2014). Nowatski and Grant (Nowatzki N, 2011) isə qadınlar və kişilər arasında bərabərsizliklərin mənbələrini və nəticələrini müəyyənləşdirməyə, eləcə də onların aradan qaldırılması üçün strategiyaların hazırlanmasına yönəlmiş gender yönümlü təhlil üçün əsaslandırma təqdim etmişlər. Clinical Orthopaedics and Related Research jurnalı 2014-cü ildə elmi hesabatlarda gender və cins məsələlərinə dair bir redaksiya məqaləsi dərc etmiş və orada bir sıra tövsiyələr təqdim olunmuşdur (Leopold SS, 2014). Redaksiya assosiasiyaları, nəşriyyatlar, maliyyələşdirici agentliklər və ictimai təşkilatlar da cins və gender məsələlərinə maraq göstərmişlər. Canadian Institutes of Health Research 2010-cu ildə bütün qrant müraciətçiləri üçün tədqiqat dizaynlarında gender və cins amillərinin nəzərə alınıb-alınmadığı ilə bağlı məcburi suallara cavab vermək tələbi tətbiq etmişdir (Canadian Institutes of Health Research., 2014). ABŞ-də qadınların tədqiqat iştirakçıları kimi cəlb olunmasında əldə edilən irəliləyişlər, əsasən, National Institutes of Health tərəfindən 1993-cü ildə görülmüş tədbirlərlə bağlıdır. Həmin tədbirlərə əsasən, müdaxilələrin fərqli təsirlərinin etibarlı təhlilinin aparılması üçün III faza klinik tədqiqatlara qadınların və azlıqların daxil edilməsi tələb olunmuşdur (NIH, 2001). Daha yaxın dövrdə National Institutes of Health preklinik tədqiqatlarda kişi və dişi hüceyrələrin və heyvanların balanslı şəkildə necə istifadə olunacağını qrant müraciətçilərinin təsvir etmələrini tələb etməyi planlaşdırdığını elan etmişdir; yalnız cinsə xas daxilolma əsaslandırılmadığı hallarda bu tələb istisna edilə bilər (Clayton JA, 2014). Tədqiqatlarda və elmi nəşrlərdə cins və gender amillərinin əhəmiyyətinin daha geniş şəkildə qəbul olunmasına baxmayaraq, elmin bəzi sahələrində irəliləyiş ləng olmuşdur və jurnallar, jurnal redaktorları və elmi cəmiyyətlər tərəfindən əvvəlki təşəbbüslərin davam etdirilməsi üçün əlavə səy göstərilməlidir. Nieuwenhovenin (Nieuwenhoven L, 2010) qeyd etdiyi kimi, alimləri tədqiqatlarına cins və gender aspektlərini inteqrasiya etməyə təşviq etmək üçün daha təsirli və məqsədyönlü yanaşmalara ehtiyac vardır. Məsələn, müxtəlif elmi sahələr üzrə nəşrlərdə cins və genderin daha keyfiyyətli təqdimatı üçün vahid, ümumi tövsiyələr toplusu mövcud deyil. Bu ehtiyacı aradan qaldırmaq məqsədilə, hazırkı məqalədə müxtəlif sahələr üzrə tədqiqatlarda cins və genderin təqdimatına daha sistemli yanaşmanı təşviq edən beynəlxalq təlimatlar toplusunun hazırlanması təsvir olunur.

**Metodlar**

European Association of Science Editors (EASE) 2012-ci ildə Gender Siyasəti Komitəsi yaratmış və ona Tədqiqatlarda Cins və Gender Bərabərliyinin Hesabatı üzrə qaydalar toplusunun (SAGER) hazırlanmasını tapşırmışdır. Gender Siyasəti Komitəsinin sədri Dr. Heidari tərəfindən doqquz ölkəni təmsil edən 13 ekspertdən (səkkizi qadın, beşi kişi) ibarət panel seçilmişdir. Panel üzvlərindən səkkizi müxtəlif biotibbi jurnalların baş redaktorları olmuş, qalan üzvlər isə gender tədqiqatları və elmi nəşriyyat sahəsində ixtisaslaşmış mütəxəssislər idi. Beynəlxalq nəşriyyat icmasının üzvləri olan 716 jurnal redaktoru, alim və digər iştirakçılar arasında mövcud cins və gender siyasətləri və bu siyasətlərə ehtiyacla bağlı məlumatların toplanması məqsədilə ilk dəfə onlayn sorğu keçirilmişdir. Sorğu dörd əsas sahəyə yönəlmişdir: (1) mümkün olduqda məlumatların cins və ya gender üzrə ayrılıqda təqdim edilməsini tələb və ya təşviq edən müəllif təlimatları; (2) redaksiya heyətinin və şuralarının tərkibi ilə bağlı gender siyasətləri; (3) rəyçilər arasında gender balansını təmin etməyə yönəlmiş siyasətlər; (4) rəyçilərdən əlyazmalarda cins üzrə ayrılmış məlumatların və gender analizinin daxil edilməsini qiymətləndirməyi tələb edən təlimatlar. Sorğu dörd qrupu əhatə etmişdir: European Association of Science Editors üzvləri; International Society of Addiction Journal Editors üzvləri; Thomson Reuters SCI Expanded jurnal bazasındakı 8607 jurnal arasından təsadüfi seçilmiş 100 jurnal və sorğunu doldura bilən istənilən şəxslərdən ibarət açıq qrup. Ümumilikdə, sorğuda 716 respondent iştirak etmiş, bu da 338 unikal jurnal və 114 unikal nəşriyyat evini əhatə etmişdir. Sorğudan əlavə,

siyasət variantlarını müəyyən etmək və ekspert tövsiyələrini əldə etmək üçün bir neçə digər metoddan da istifadə olunmuşdur. İlk olaraq, cins və gender üzrə xüsusi siyasətləri olan jurnalları müəyyən etmək məqsədilə açar sözlərlə axtarışlar aparılmışdır (məsələn, "cins" + "müəlliflər üçün təlimatlar"). Bundan əlavə, elm sahəsində cins və gender üzrə bilik boşluqları ilə bağlı narahatlıqlarını açıq şəkildə ifadə edən jurnalların veb-saytları, eləcə də Gender Siyasəti Komitəsinə artıq məlum olan jurnalların cins və gender üzrə hesabat siyasətləri nəzərdən keçirilmişdir. Komitə üç il ərzində bir sıra telekonfranslar, konfrans təqdimatları və 2 günlük seminar vasitəsilə fəaliyyət göstərərək öz tövsiyələrini hazırlamışdır. Qaydaların ilkin layihəsi hazırlandıqdan sonra fərqli fikirlər Belçikanın Blankenberge və Xorvatiyanın Split şəhərlərində keçirilən redaktor görüşlərində müzakirə edilmişdir. Bundan əlavə, layihə sənədi cins və gender tədqiqatları sahəsində 36 ekspertə göndərilmiş və alınan rəylər müvafiq hallarda sənədə daxil edilmişdir.

## Nəticələr

### Sorğu nəticələri

Dörd seçmə qrupun hər bir jurnalında cins və/və ya gender siyasətlərinin mövcud olduğunu bildirən respondentlərin orta payı 7% olmuşdur. Kişilər və qadınlar arasında daha yüksək bərabərliyin olduğu (Gender Bərabərsizliyi İndeksi – GII-nin daha aşağı olduğu) ölkələrdən olan respondentlər bu siyasətlərin mövcud olduğunu daha çox bildirmişlər. Təsadüfi seçilmiş 100 jurnal nümunəsində, eləcə də European Association of Science Editors və International Society of Addiction Journal Editors qruplarında respondentlərin əksəriyyəti (75 %) müəllif təlimatlarında cins və gender amillərinin tələb kimi daxil edilməsinə ya əmin olmadıqlarını, ya da buna razı olmadıqlarını bildirmişlər. Qadın respondentlər kişi respondentlərlə müqayisədə cins və gender üzrə hesabat siyasətlərini daha çox dəstəkləmişlər. Nəticələrin şərhində ehtiyatlı yanaşma tələb olunsa da, sorğunun nəticələri müəllif təlimatları, rəyçilər üçün qaydalar və həm redaksiya heyətində, həm də rəyçilər arasında gender balansına dair cins və genderlə bağlı siyasətlərin kifayət qədər az olduğunu göstərir.

## Ədəbiyyat icmalı

Apardığımız icmal 62 jurnal tərəfindən hazırlanmış və tətbiq olunan siyasətləri, eləcə də jurnal məqalələri, redaksiya yazıları, ekspert komitələrinin hesabatları və konfrans materialları formasında nəşr olunmuş əlavə 25 mənbəyi müəyyən etmişdir. Cins və gender üzrə siyasətlərin və qaydaların əksəriyyəti "Müəlliflər üçün təlimatlar" kateqoriyasına aid olmuş, müxtəlif elmi sahələri (məsələn, "heyvan elmləri", "səhiyyə – psixiatriya") və tədqiqat növlərini (məsələn, heyvan, insan, hüceyrə və ya bunların kombinasiyası) əhatə etmişdir. Əksər hallarda bu təlimatlar yalnız uyğun olduğu hallarda nəticələrin kişi və qadınlar üzrə ayrı-ayrılıqda təqdim edilməsini tövsiyə etmişdir. Bir sıra jurnallar (listed, 2011) (Nature, 2012) (Leopold SS, 2014) redaksiya səhifələrindən istifadə edərək yeni siyasətlərin qəbulunu elan etmiş və ya cins və gender məsələlərinə daha çox diqqət yetirilməsinin vacibliyini vurğulamışdır. Məsələn, Clinical Orthopaedics and Related Research jurnalının redaktorları (Leopold SS, 2014) bir redaksiya məqaləsi dərc edərək aşağıdakı təlimatlardan istifadə edilməsini tövsiyə etmişlər: (1) əgər tədqiq olunan sağlamlıq vəziyyəti bütün cins və genderlərdə müşahidə olunursa, tədqiqatlar həm kişi, həm də qadınlar üçün suallara cavab verməyə kifayət edəcək dərəcədə güclü (statistik cəhətdən əsaslandırılmış) şəkildə dizayn edilməlidir; (2) bütün klinik, fundamental və epidemioloji tədqiqatlarda uyğun olduqda cins və/və ya genderə spesifik məlumatlar təqdim edilməlidir; (3) cinsin və ya genderin tədqiqat nəticələrinə təsiri (və ya assosiasiyası) təhlil edilməli, yaxud belə təhlillərin aparılmamasının səbəbi "Metodlar" bölməsində göstərilməli və bu məsələ "Müzakirə" bölməsində məhdudiyyət kimi qeyd olunmalıdır; (4) əgər cins və ya gender üzrə post-hoc təhlillər aparılmışdırsa, bu təhlillərin ehtiyatla şərh edilməli olduğu qeyd edilməlidir. 2011-ci ildə keçirilmiş "Sex-specific reporting of scientific research" adlı seminarda National Academi-

es of Sciences, Engineering, and Medicine tərəfindən bir araya gətirilmiş müxtəlif maraqlı tərəflər jurnal və jurnal redaktorlarının diqqət yetirməli olduqları əsas məsələləri müəyyən etmişlər. Bu məsələlərə müəlliflərdən tədqiqat subyektlərinin cinsi barədə məlumat təqdim etmələrinin tələb olunması daxildir; bu tələb yalnız insan iştirakçıları olan tədqiqatlara deyil, həmçinin heyvan tədqiqatlarına və insan və ya heyvan mənşəli hüceyrələr, toxumalar və digər materiallarla aparılan tədqiqatlara da şamil edilməlidir. Doull et al. (Doull M R. V., 2010) qərarvermə üçün sübutların toplanması, sintezi və təhlilinin təkmilləşdirilməsi məqsədilə sistematik icmalların, cins və gender əsaslı analizlərin metodologiyalarının təkmilləşdirilməsini və uyğunlaşdırılmasını təklif etmişlər. Nowatski and Grant (Nowatzki N, 2011) isə qadınlar və kişilər arasında bərabərsizliklərin mənbələrini və nəticələrini müəyyənləşdirmək, eləcə də onların aradan qaldırılması üçün strategiyalar hazırlamaq məqsədi daşıyan gender əsaslı analiz (GBA) üçün əsaslandırma təqdim etmişlər. GBA səhiyyə və tibbi xidmət sahəsində gender fərqlərinə və müvafiq siyasətlərə diqqət yetirir.

**SAGER təlimatları**

Yuxarıda nəzərdən keçirilmiş siyasətlər, prosedurlar və tövsiyələr tədqiqatlarda cins və genderin sistemli şəkildə hesabatlandırılmasını təşviq etmək məqsədi daşıyan SAGER təlimatlarının hazırlanması üçün əsas kimi istifadə olunmuşdur. Bu qaydalar tədqiqatçılar və müəlliflər üçün elmi nəşrlərdə cins və gender məlumatlarının standartlaşdırılmış şəkildə hesabatlandırılmasına xidmət edən bir vasitədir. Bu qaydalar həm də redaktorlar üçün nəzərdə tutulmuşdur ki, onlar bundan tədqiqat əlyazmalarını qiymətləndirmək üçün praktik vasitə kimi istifadə etsinlər, eyni zamanda müəlliflər və rəyçilər arasında məlumatlılığın artırılmasına töhfə versinlər. Baxmayaraq ki, hesabatvermə təlimatları, adətən tədqiqatda faktiki olaraq nəyin necə aparıldığını təqdim etməyə fokuslanır, qeyd olunur ki, SAGER qaydalarına daxil edilən bütün müddəalar hər bir konkret tədqiqat üçün tətbiq edilə və ya həyata keçirilə bilməz. Bu səbəbdən, SAGER müəllifləri, redaktorları və rəyçiləri təşviq edir ki, cins və genderin tədqiqat mövzusu üçün nə dərəcədə uyğun olduğunu qiymətləndirsinlər və müvafiq hallarda təlimatlara əməl etsinlər. Ümumi prinsip olaraq, SAGER təlimatları "cins" və "gender" terminlərinin diqqətlə istifadə olunmasını tövsiyə edir ki, bu anlayışlar bir-biri ilə qarışdırılmasın. Vahid təriflərdən istifadə dərc olunmuş və arxivləşdirilmiş məlumatlar əsasında meta-analizlərin aparılması imkanlarını yaxşılaşdıracaqdır. "Cins" termini, mümkün olduğu hallarda təsdiqlənə bilən bioloji fərqlərə əsaslanan kişi və ya qadın təsnifatı kimi istifadə edilməlidir. Müəlliflər "Metodlar" bölməsində iştirakçıların cinsinin özünə bəyan etmə əsasında, bədən xüsusiyyətlərinin daxili və ya xarici müayinəsi ilə, genetik testlər vasitəsilə və ya digər üsullarla müəyyən edildiyini qeyd etməlidirlər. Heyvanlar üzərində aparılan tədqiqatlarda "cins" termini istifadə olunmalıdır. Hüceyrə biologiyası, molekulyar biologiya və biokimya sahələrində aparılan eksperimentlərdə hüceyrə və ya toxuma kulturasının mənşəyi və cins xromosomlarının tərkibi göstərilməlidir. Əgər bu məlumat məlum deyilsə, səbəbləri göstərilməlidir. Digər sahələrdə, məsələn, cihaz və ya texnologiyaların sınağı zamanı müəlliflər bu texnologiyanın bütün genderlər tərəfindən istifadə olunub-olunmayacağını və istifadəçinin genderi nəzərə alınaraq sınaqdan keçirilib-keçirilmədiyini izah etməlidirlər. Qeyd olunur ki, bir çox tədqiqatlar cins və/və ya gender fərqlərini təhlil etmək məqsədilə "planlaşdırılmamışdır", lakin panel hesab edir ki, xüsusilə tibbi tədqiqatlarda bu cür təhlillər cins və gender haqqında biliklərin inkişafı üçün zəruridir. Cədvəl 1-də SAGER təlimatları təqdim olunmuşdur. Bu qaydalar insanlarla, heyvanlarla və ya insan və heyvan mənşəli hər hansı materiallarla (məsələn, orqanlar, hüceyrələr, toxumalar) aparılan bütün tədqiqatlara, eləcə də nəticələri insanlara tətbiq edilən digər sahələrə (məsələn, mexanika və mühəndislik) şamil olunur.

**Cədvəl 1.**
**Tədqiqatda Cins və Gender Bərabərliyi üzrə (SAGER) təlimatları**

**Ümumi prinsiplər**

Müəlliflər "cins" və "gender" terminlərini diqqətlə istifadə etməlidirlər ki, bu anlayışlar bir-biri ilə qarışdırılmasın. Tədqiqat obyektləri cins üzrə fərqlənə bilən orqanizmlərdən ibarət olduqda, tədqiqat nəticələrində cinslə bağlı fərqləri üzə çıxara biləcək şəkildə dizayn edilməli və aparılmalıdır, hətta bu fərqlər ilkin olaraq gözlənilməsə belə. Əgər tədqiqat subyektləri gender (sosial və mədəni şəraitlə formalaşan) üzrə də fərqləndirilə bilirsə, tədqiqat bu əlavə fərqləndirmə səviyyəsi nəzərə alınaraq oxşar şəkildə aparılmalıdır.

**Məqalənin bölmələri üzrə tövsiyələr**

| | |
|---|---|
| Başlıq və xülasə | Əgər tədqiqatda yalnız bir cins iştirak edirsə və ya tədqiqatın nəticələri yalnız bir cinsə və ya genderə tətbiq olunacaqsa, başlıq və xülasədə heyvanların cinsi, eləcə də onlardan əldə olunmuş hüceyrə, toxuma və digər materialların cinsi açıq şəkildə göstərilməlidir. Həmçinin, insan iştirakçıların cinsi və genderi də qeyd edilməlidir. |
| Giriş | Müəlliflər, müvafiq hallarda, cins və/və ya gender fərqlərinin gözlənilib-gözlənilmədiyini bildirməlidirlər. |
| Metodlar | Müəlliflər tədqiqatın dizaynında cins və genderin necə nəzərə alındığını, kişi və qadınların adekvat təmsil olunmasının təmin edilib- edilmədiyini və kişi və ya qadınların tədqiqatdan istisna edilməsi hallarında bunun səbəblərini əsaslandırmalıdırlar. |
| Nəticələr | Uyğun olduğu hallarda, məlumatlar müntəzəm olaraq cins və gender üzrə ayrı-ayrılıqda təqdim edilməlidir. Nəticənin müsbət və ya mənfi olmasından asılı olmayaraq, cins və gender əsaslı analizlər barədə hesabat verilməlidir. Klinik sınaqlarda tədqiqatdan çıxan və ya tədqiqatı yarımçıq tərk edən iştirakçılar barədə məlumatlar da cins üzrə ayrı-ayrılıqda təqdim olunmalıdır. |
| Müzakirə | Tədqiqat nəticələri və aparılan analizlər üzərində cins və genderin mümkün təsirləri müzakirə edilməlidir. Əgər cins və gender analizi aparılmamışdırsa, bunun səbəbi göstərilməlidir. Müəlliflər, həmçinin belə bir analizin aparılmamasının nəticələrin şərhinə təsirlərini də müzakirə etməlidirlər. |

**Başlıq və xülasə**

Əgər tədqiqatda yalnız bir cins və ya gender iştirak edirsə, başlıq və xülasədə heyvanların cinsi, eləcə də onlardan əldə olunmuş hüceyrə, toxuma və digər materialların cinsi, həmçinin insan iştirakçılarının cinsi və genderi açıq şəkildə göstərilməlidir. Tətbiqi elmlərdə (texnologiya, mühəndislik və s.) müəlliflər tədqiqat modelinin yalnız bir cinsə əsaslanıb-əsaslanmadığını və ya tətbiqin konkret bir cins üçün nəzərdə tutulub-tutulmadığını göstərməlidirlər. Cinsə xas olmayan məsələlərlə bağlı aparılan tədqiqatlarda yalnız bir cins istifadə olunubsa, məqalənin başlığı və xülasəsi bu faktı açıq şəkildə əks etdirməli və "kişilərdə" və ya "qadınlarda" ifadələrini ehtiva etməlidir. Əgər ilkin hüceyrə kulturları, toxumalar və s. yalnız bir cinsdən əldə olunmuşdursa, bu məlumat başlıqda göstərilməlidir (Institute of Medicine (IOM), 2012).

## Giriş

Müəlliflər, müvafiq hallarda, cins və ya gender fərqlərinin və ya oxşarlıqlarının mövcudluğunu və ya olmamasını göstərən əvvəlki tədqiqatlar barədə məlumat verməlidirlər. Bu qəbildən olan tədqiqatlar kifayət qədər olmadıqda, müəlliflər bioloji cins və/və ya genderin mühüm bir dəyişən (variant) olub-olmadığını əsaslandırmalı və potensial fərqlərin gözlənilmə ehtimalını şərh etməlidirlər.

## Metodlar

Müəlliflər tədqiqatın dizaynında cins və genderin necə nəzərə alındığını, kişi və qadınların adekvat təmsil olunmasının təmin edilib-edilmədiyini və kişi və ya qadınların istisna edilməsi hallarında bunun səbəblərini əsaslandırmalıdırlar. Tədqiqat populyasiyası və analitik yanaşma ilə bağlı cins və genderə dair metodoloji seçimlər, digər metodoloji seçimlərdə olduğu kimi təqdim edilməli və əsaslandırılmalıdır. İnsan və ya heyvan mənşəli ilkin hüceyrə kulturları və ya hüceyrə xətləri ilə aparılan in vivo və in vitro tədqiqatlarda, eləcə də insan və ya heyvan toxumaları ilə aparılan ex vivo tədqiqatlarda subyektlərin və ya donor mənbələrinin cinsi göstərilməlidir; yüksək dərəcədə transformasiyaya uğramış immortalizə olunmuş hüceyrə xətləri isə istisna təşkil edir (Institute of Medicine (IOM), 2012). Digər hallarda isə, məsələn, embrional və ya erkən postnatal kulturlar, qarışıq kulturlardan əldə olunmuş immortalizasiya olunmuş hüceyrə xətləri və ya cinsi sənədləşdirilməmiş əvvəlki təcrübələr üçün tədqiqatçılara hüceyrələrin cinsini xromosom analizi vasitəsilə müəyyən etmələri tövsiyə olunur. “Qarışıq” və ya “naməlum” kimi göstəricilər yalnız cins heç bir üsulla müəyyən edilə bilmədikdə istifadə edilməlidir.

## Nəticələr

Məlumatlar cins üzrə ayrı-ayrılıqda təqdim edilməli, müvafiq hallarda isə cins və gender fərqləri və oxşarlıqlarının təhlili verilməlidir. Kişilər və qadınlar arasında anatomik və fizioloji fərqlər (boy, çəki, bədən kütləsi, hüceyrə sayı, hormonal dövrlər və s.), eləcə də sosial və mədəni dəyişənlər (sosial-iqtisadi status, təhsil və s.) məlumatların təqdimatı və/və ya nəticələrin təhlili zamanı nəzərə alınmalıdır. Heyvanlar, toxumalar, hüceyrələr və kulturlar üçün “Gendered Innovations” yoxlama siyahısından istifadə edilməsi tövsiyə olunur (Gendered Innovations in Science, Health & Medicine, Engineering, and Environment., 2014). Əgər cins və gender əsaslı analizlər aparılıbsa, nəticələr müsbət və ya mənfi olmasından asılı olmayaraq təqdim edilməlidir. İnsan tədqiqatlarında cins və gender üzrə məlumatlar (müvafiq hallarda) iştirak, qeydiyyat, tədqiqatdan çıxma, tədqiqatın dayandırılması və tədqiqat başlayandan sonra izləmə mərhələsində ayrı-ayrılıqda təqdim edilməlidir. Cins və gender faktorlarının təsiri isə onların xəstəliyin yaranması, gedişi, müalicənin effektivliyinə təsiri və əldə olunan nəticələrdə oynadığı hipotetik rolu əsasında əvvəlcədən qiymətləndirilməlidir. Tədqiqat dizaynı mənalı nəticələr çıxarmağa imkan vermədiyi hallarda, post-hoc (əvvəlcədən planlaşdırılmamış) gender əsaslı analizlərin aparılmasından çəkinmək tövsiyə olunur. Bütün hallarda, gələcək meta-analizlər və birləşdirilmiş təhlillər üçün xam məlumatlar cins və gender üzrə ayrı-ayrılıqda dərc edilməlidir. Epidemioloji tədqiqatlarda sosial-iqtisadi dəyişənlər kimi digər təsirlərin sağlamlıq problemlərinə təsiri bütün genderlər üzrə araşdırılmalı və gender perspektivindən tənqidi şəkildə təhlil edilməlidir. Biz etiraf edirik ki, hesabatvermə təlimatları, əsasən, tədqiqatda faktiki olaraq görülən işlərin necə təqdim olunmasına fokuslanır. Lakin SAGER qaydalarında yer alan bütün bəndlərin yerinə yetirilməsi mütləq deyil; bu, mətndə “müvafiq hallarda” ifadəsi ilə göstərilir. SAGER qaydaları tədqiqatda cins və gender bərabərliyini təşviq etməyə yönəlmişdir. Buna görə də, o, müəllifləri, redaktorları və rəyçiləri tədqiqat mövzusu üçün cins və genderin nə dərəcədə əhəmiyyətli olduğunu qiymətləndirməyə və müvafiq hallarda bu qaydalara əməl etməyə təşviq edir.

**Müzakirə**

Tədqiqat nəticələrinin şərhində cins və genderin təsirləri, o cümlədən populyasiyada bütün cins və gender qruplarına nəticələrin nə dərəcədə şamil oluna biləcəyi ətraflı şəkildə izah edilməlidir. Əgər cins və gender əsaslı analizlər aparılmamışdırsa, müəlliflər tədqiqatın məhdudiyyətləri bölməsində bunun səbəblərini göstərməli və belə analizlərin nəticələrə potensial təsirini müzakirə etməlidirlər. Tədqiqat nəticələri şərh edilərkən əvvəlki tədqiqatlar həm metodoloji dəqiqlik, həm də prosedur və şərh cinsə əsaslanan qərəzlilik baxımından nəzərdən keçirilməlidir. Müəlliflər "cins" və "gender" anlayışlarını qarışdırmaqdan və mürəkkəb və ya interaksionist izahları həddindən artıq sadələşdirməkdən çəkinməlidirlər. Cins və genderlə bağlı hadisələrin izahında bütün mümkün amillər – sosial, mədəni, bioloji və situativ faktorlar – nəzərə alınmalı, cinslə bağlı bir çox davranışların mədəni və ya bioloji amillərdən qaynaqlana biləcəyi qəbul edilməlidir. Biologiya və davranış arasında kovariasiya olması fizioloji səbəb-nəticə əlaqəsinin mövcudluğuna dəlil hesab edilmir. Əlavə 2 müəlliflər arasında məlumatlılığı artırmaq məqsədi daşıyan bir sıra suallar təqdim edir. Elmi tədqiqat aparan bir çox sahələr üçün bu siyahı əlyazmanın təqdimat üçün hazırlanması zamanı əsas kimi istifadə oluna bilər.

**Nəticə**

SAGER qaydaları 3 illik müddət ərzində multidissiplinar akademiklər, alimlər və jurnal redaktorlarından ibarət bir qrup tərəfindən ədəbiyyat icmalları, ekspert rəyləri və konfranslarda keçirilən ictimai məsləhətləşmələr vasitəsilə hazırlanmışdır. Müəlliflər, jurnal redaktorları, nəşriyyatlar, rəyçilər və elmi ictimaiyyətin digər üzvləri elmi nəşrlərdə cins və gender aspektinə diqqət yetirilməməsi probleminin aradan qaldırılmasında mühüm rol oynayırlar.

SAGER qaydaları tədqiqatçılara və müəlliflərə elmi nəşrlərdə cins və gender üzrə hesabatverməni standartlaşdırmaq üçün bir vasitə təklif edir. Bu qaydalar elmi tədqiqatlarda cins və gender üzrə hesabatverməni yaxşılaşdırmaq, müəlliflər və rəyçilər üçün bələdçi rolunu oynamaq, müxtəlif tədqiqat sahələri və nizam-intizama uyğunlaşacaq qədər çevik olmaq və tədqiqat nəticələrinin daha effektiv şəkildə kommunikasiya olunmasına xidmət etmək məqsədilə hazırlanmışdır.

Bununla belə, bu qaydalar gender baxımından müxtəlif əhali qrupları üçün konkret tövsiyələr vermir. Etiraf edilir ki, əksər tədqiqatlar belə qruplar üzrə təsir fərqlərini aşkar etmək üçün statistik gücə malik deyil, xüsusilə də bu cür müxtəlifliyin az tanındığı ölkələrdə. Lakin müəlliflər öz tədqiqatlarının gender baxımından müxtəlif qruplar üçün nə dərəcədə əhəmiyyətli olduğunu nəzərə almalıdırlar.

Redaktorlar vurğulamalıdırlar ki, cins və gender məsələlərinin inteqrasiyası elmin daha ciddi və etik olmasının təmin olunmasına xidmət edir. Qaydaların məcburi şəkildə tətbiqi çətin olduğu hallarda, jurnal redaktorlarına SAGER qaydalarını dəstəkləmələri və onları öz jurnallarının və elmi sahələrinin ehtiyaclarına uyğunlaşdırmaları, həmçinin hər bir hesabat elementi üçün yaxşı təcrübə nümunələri daxil etmələri tövsiyə olunur.

Minimum olaraq, orijinal tədqiqatlar dərc edən jurnallar müəlliflər üçün təlimatlarında bütün məqalələrdə məlumatların cins və gender üzrə ayrı-ayrılıqda təqdim edilməsini və müvafiq hallarda cins və gender fərqləri və ya oxşarlıqlarının adekvat şəkildə izah edilməsini tələb etməlidirlər.



Şəkil 1. Təqdim olunmuş əlyazmaların ilkin yoxlanılması zamanı redaktorlar üçün istiqamətləndirici SAGER sxemi

Şəkil 1-də təqdim edilmiş əlyazmaların ilkin yoxlanılması zamanı istifadə oluna biləcək suallar siyahısı təqdim edilir. Redaktorlar redaksiya heyəti tərəfindən genderə həssas əlyazma qiymətləndirilməsinin sistemləşdirilməsi məqsədilə ilkin yoxlama üçün istifadə olunan siyahıya xüsusi suallar daxil etməlidirlər. Aşağıda rəyçilərin qiymətləndirmə formalarına daxil edilə biləcək sual nümunələri verilmişdir:

1. Tədqiqatda cins və gender məsələləri aktualdırmı?
2. Müəlliflər cins və gender aspektlərini kifayət qədər nəzərə alıblarmı və ya belə analizlərin aparılmadığını əsaslandırıblarmı?

Bu təlimatların effektiv olması üçün onlar elmi ictimaiyyətin geniş təbəqəsi tərəfindən dəstəklənməlidir. Buraya jurnal redaktorları, nəşriyyatlar, redaktor cəmiyyətləri, peşəkar təşkilatlar, elmi təşviqat qrupları, elmi jurnalistlər və digər elmi kommunikasiya nümayəndələri daxildir.

Redaktorlar SAGER təlimatlarını rəyçilərə təqdim etməli və onların məqalələrin qiymətləndirilməsində bu təlimatlardan istifadə etmələrini təşviq etməlidirlər. Onlar, həmçinin rəyçilər tərəfindən doldurulan məqalə qiymətləndirmə formalarına cins və gender məsələlərinin əhəmiyyəti və aktuallığı ilə bağlı xüsusi sualların daxil edilməsini təmin etməlidirlər.

Redaksiya heyətinin cins və genderə həssas hesabatvermənin əhəmiyyəti barədə təlimləndirilməsi etik davranış və redaksiya təcrübələri üzrə müntəzəm təlimlərin bir hissəsi kimi həyata keçirilməlidir.

## Əlavə 1
## Terminlər lüğəti

*Gender.* Gender qadın, kişi və gender baxımından müxtəlif insanların sosial olaraq formalaşmış rollarına, davranışlarına və identikliklərinə aiddir (Coen S, 2012). Bu anlayış insanların özlərini və başqalarını necə qavramasına, necə davranmasına və qarşılıqlı münasibətlərinə, həmçinin cəmiyyətdə güc və resursların bölüşdürülməsinə təsir göstərir. Gender, adətən yanlış olaraq ikili anlayış (qadın/kişi) kimi qəbul edilir. Halbuki gender identikliklərini və ifadələrini müəyyən edən geniş bir spektr mövcuddur.

*Gender identikliyi.* Şəxsin özünü kişi və maskulin, qadın və feminin və ya ambivalent kimi dərk etməsidir; bu dərk qismən fiziki xüsusiyyətlər, valideynlərin reaksiyaları, eləcə də psixoloji və sosial təzyiqlər əsasında formalaşır. Bu, gender rolunun daxili təcrübəsidir (MeSH termini 1991-ci ildə daxil edilmiş, 1975-ci ildə yenidən işlənmişdir).

*Gender-əsaslı analiz.* Bu, gender perspektivini siyasətlərin, proqramların və qanunvericiliyin hazırlanmasına, eləcə də planlaşdırma və qərarvermə proseslərinə sistemli şəkildə inteqrasiya edən bir analitik vasitədir. Bu yanaşma qadınlar və kişilər, həmçinin oğlanlar və qızlar arasında mövcud olan fərqləri müəyyən etməyə və aydınlaşdırmağa kömək edir və həmin fərqlərin sağlamlıq vəziyyətinə, səhiyyə xidmətlərinə çıxışa və səhiyyə sistemi ilə qarşılıqlı əlaqəyə necə təsir etdiyini göstərir.

(http://www.hc-sc.gc.ca/hl-vs/pubs/women-femmes/gender-sexes-eng.php).

*Genderə həssas analiz.* Bu, statistik məlumatların yalnız cins üzrə sadə bölgüsü ilə məhdudlaşmayan (məsələn, sadə "cins sayı" kifayət deyil) daha geniş təhlili əhatə edən yanaşmadır. Genderə həssas analiz verilənlərdə əks olunan əsas gender münasibətlərini və sosial strukturları təhlil etməlidir.

(http://www.oecd.org/dac/gender-development/4489 6238.pdf)

*Gender perspektivi.* Gender perspektivi genderin insanların imkanlarına, sosial rollarına və qarşılıqlı münasibətlərinə təsirini nəzərə alan yanaşmadır. Beynəlxalq və milli təşkilatların siyasət, proqram və layihə məqsədlərinin uğurla həyata keçirilməsi genderin təsirindən birbaşa asılıdır və eyni zamanda sosial inkişaf prosesinə də təsir göstərir. Gender fərdlərin və cəmiyyətlərin iqtisadi, sosial, gündəlik və şəxsi həyatının ayrılmaz hissəsidir və cəmiyyət tərəfindən qadınlara və kişilərə aid edilən müxtəlif rolları əhatə edir.

(http://www.fao.org/docrep/003/x2919e/x2919e04.htm)

*Cins.* Cins insanlarda və heyvanlarda fiziki və fizioloji xüsusiyyətlərlə, o cümlədən xromosomlar, gen ifadəsi, hormon funksiyası və reproduktiv/cinsi anatomiya ilə əlaqəli bioloji xüsusiyyətlər toplusuna aiddir (Coen S, 2012). Adətən cins qadın və kişi kimi kateqoriyalara bölünür, lakin bu bioloji xüsusiyyətlərdə və onların ifadə olunma formasında fərqliliklər mövcuddur.

*Cins- və Gender-əsaslı analiz.* Bu analiz metodu sağlamlıq tədqiqatlarının, siyasətlərin və proqramların hazırlanmasına, eləcə də səhiyyədə planlaşdırma və qərarvermə proseslərinə cins və gender perspektivini inteqrasiya edən analitik yanaşmadır. Bu yanaşma qadınlar və kişilər, həmçinin oğlanlar və qızlar arasındakı fərqləri müəyyən etməyə və aydınlaşdırmağa kömək edir və bu fərqlərin sağlamlıq vəziyyətinə, səhiyyə xidmətlərinə çıxışa və səhiyyə sistemi ilə qarşılıqlı əlaqəyə necə təsir etdiyini göstərir.

(http://www.hc-sc.gc.ca/hl-vs/gender-genre/analys/index-eng.php).

Cins üzrə ayrılmış məlumatlar. Kişilər və qadınlar üzrə ayrı-ayrılıqda toplanan və təqdim edilən məlumatlardır.

Gender Mainstreaming Implementation Framework – UNESCO, 2003.

*Seksizm.* Genderə əsaslanan qərəz və ya ayrı-seçkilik, yaxud genderə əsaslanan stereotipləşdirilmiş sosial rolları formalaşdıran davranış və münasibətlər.

(MeSH termini, 2013-cü ildə daxil edilmişdir.)

**Əlavə 2**
Cədvəl 2: Müəlliflər üçün genderə həssas hesabatvermə üzrə yoxlama siyahısı

Tədqiqat yanaşmaları ✓

✓ Tədqiqat layihənizdə gender və/və ya cins anlayışlarından istifadə olunurmu?

✓ Əgər olunubsa, gender və/və ya cins anlayışlarını açıq şəkildə tərif etmisinizmi? Tədqiqatınızda gender və/və ya cinsin hansı aspektlərinin araşdırıldığı aydındırmı?

✓ Əgər olunmayıbsa, bunu mühüm məhdudiyyət hesab edirsinizmi? Mövcud elmi ədəbiyyata əsasən, nəzərə alınmalı olan mümkün gender və/və ya cins faktorları varmı? Əgər cins və/və ya gender sizin tədqiqatınız üçün yüksək dərəcədə aktualdırsa, tədqiqat dizaynı bunu əks etdirməlidir.

Tədqiqat sualları və hipotezlər

✓ Tədqiqat sual(lar)ınız və ya hipotez(lər)iniz gender və/və ya cinsə, yaxud müvafiq qruplara və ya fenomenlərə istinad edirmi? (məsələn, kişi və qadınlar arasındakı fərqlər, qadınlar arasında fərqlər, maskulinlik kimi genderlə əlaqələnmiş fenomenləri anlamağa yönəlmiş yanaşmalar)

Ədəbiyyat icmalı

✓ Ədəbiyyat icmalınız qadınlar və kişilər, oğlanlar və qızlar və ya kişi və qadınlar arasında mühüm fərqlərin mövcudluğunu (və ya olmamasını) dəstəkləyən əvvəlki tədqiqatlara istinad edirmi?

✓ Ədəbiyyat icmalınız keçmiş tədqiqatların gender və ya cins amillərini nə dərəcədə nəzərə aldığını göstərirmi?

Tədqiqat metodları

✓ Nümunəniz gender və/və ya cins amillərini əhatə etmək üçün uyğundurmu?

✓ Məlumatların cins və/və ya gender üzrə ayrı-ayrılıqda toplanması mümkündürmü?

✓ Daxilolma və istisna meyarları cins və/və ya gender baxımından əsaslandırılıbmı? (Qeyd: bu həm insan və heyvan subyektlərinə, həm də tam orqanizm olmayan bioloji sistemlərə aiddir)

✓ Tədqiqatınızda istifadə olunan məlumat toplama metodu cins və/və ya genderin araşdırılması üçün uyğundurmu?

✓ Analitik yanaşmanız gender və/və ya cins əsaslı amilləri əhatə etmək üçün kifayət qədər uyğun və ciddi şəkildə əsaslandırılıbmı?

Etika

✓ Tədqiqat dizaynınız gender və/və ya cins baxımından xüsusi əhəmiyyət daşıya bilən müvafiq etik məsələləri nəzərə alırmı?
(məsələn, klinik sınaqlara hamilə qadınların daxil edilməsi)
Mənbə: Kanadanın Səhiyyə Tədqiqatları

**Maraqların toqquşması**

Müəlliflərin heç birinin maliyyə xarakterli maraq toqquşması yoxdur. Bütün müəlliflər Böyük Britaniyada qeydiyyatdan keçmiş xeyriyyə təşkilatı olan Avropa Elmi Redaktorlar Assosiasiyasının Gender Siyasəti Komitəsinin ödənişsiz, könüllü üzvləridir.

**Müəlliflərin töhfələri**

SH SAGER təlimatları və məqalə ideyasının müəllifi olmuş, məqalənin bölmələrini yazmış, həmçinin məqalədə təsvir olunan işin planlaşdırılması, aparılması və hesabatlandırılmasını təşkil etmişdir. TFB məqalənin ilkin variantını hazırlamış və əlaqə müəllifi kimi çıxış etmişdir. PDC və MC SAGER təlimatlarının hazırlanmasına gətirib çıxaran müzakirələrdə iştirak etmiş, həmçinin məqalənin bölmələrinin yazılması və redaktəsini davam etdirmişlər. ST SAGER təlimatlarının hazırlanmasına gətirib çıxaran müzakirələrdə iştirak etmiş, cədvəl və ədəbiyyat siyahısı da daxil olmaqla mə-

qalənin yazılmış və yenidən işlənmiş bölmələrinə töhfə vermişdir. Bütün müəlliflər son variantı oxumuş və təsdiq etmişlər. SH və TFB işin ümumi məzmununa görə təminatçılardır.

**Minnətdarlıq**

SAGER təlimatları EASE Gender Siyasəti Komitəsinin (GPC) kollektiv səylərinin nəticəsidir (komitə üzvlərinin siyahısı üçün EASE-in veb saytına baxın). Müəlliflər xüsusilə Joan Marsh, Ines Steffens və Paul Osborn-a əlyazmanı tənqidi şəkildə oxuduqları və məqalənin qaralamalarına dəyərli rəylər verdikləri üçün təşəkkür edirlər. Müəlliflər, həmçinin EASE GPC-nin keçmiş üzvləri olan Carina Sorensen, Joy Johnson və Meridith Sones-ə komitənin fəaliyyətinə və SAGER təlimatlarının hazırlanmasına aparan prosesə verdikləri mühüm töhfələrə görə minnətdarlıqlarını bildirirlər. EASE GPC konsultasiya prosesi zamanı ekspert məsləhəti təqdim etmiş aşağıdakı şəxslərə də təşəkkürünü bildirir: Enrico Alleva, Gustav Amberg, Magda Luz Atrián-Salazar, Vivienne Bachelet, Virginia Barbour, Janine Clayton, Sharon Bloom, Gillian Einstein, Helen Herman, Roderick Hunt, Astrid James, Ineke Klinge, Cameron Neylon, Elizabeth Pollitzer, Marta Rondon və Londa Schiebinger.

**Müəlliflər haqqında məlumat**

[1] EASE Gender Siyasəti Komitəsi / Reproduktiv Sağlamlıq Məsələləri jurnalı, London, Böyük Britaniya

[2] İcma Təbabəti Departamenti, Konnektikut Universitetinin Tibb Məktəbi, Farmington, 06030-6325, ABŞ

[3] Ali Səhiyyə İnstitutu, Roma, İtaliya

[4] Cochrane Redaksiya Bölməsi, London, Böyük Britaniya

[5] Beynəlxalq QİÇS Cəmiyyətinin Jurnalı, Ceneva, İsveçrə

## ƏDƏBİYYAT

1. Coen S, Banister E, editors. What a difference sex and gender make: a gender, sex and health research casebook. Ottowa, Canada: Canadian
Institutes of Health Research; 2012.
2. Hoffman DE, Tarzian AJ. The girl who cried pain: a bias against women in the treatment of pain. J Law Med Ethics. 2001;29:13–27.
3. Institute of Medicine (IOM). Sex-specific reporting of scientific research: a workshop summary. Washington, DC: The National Academies Press; 2012.
4. Geller SE, Koch A, Pellettieri B, Carnes M. Inclusion, analysis, and reporting of sex and race/ethnicity in clinical trials: have we made progress? J Womens Health. 2011;20:315–20.
5. Leopold SS, Beadling L, Dobbs MB, et al. Fairness to all: gender and sex in scientific reporting. Clin Orthop Relat Res. 2014;472:391–2.
6. Clayton JA, Collins FS. Policy: NIH to balance sex in cell and animal studies. Nature. 2014;15(509):282–3.
7. Kim ESH, Menon V. Status of women in cardiovascular clinical trials. Arterioscler Thromb Vasc Biol. 2009;29:279–83.
8. Johnson JL, Greaves L, Repta R. Better science with sex and gender: facilitating the use of a sex and gender-based analysis in health research. Int
J Equity Health. 2009;8:14.
9. Greenspan JD, Craft RM, LeResche L, et al. Studying sex and gender differences in pain and analgesia: a consensus report. Pain. 2007;132:S26–45.
10. U.S. Government Accountability Office, GAO-01-286R. Drug safety: Most drugs withdrawn in recent years had greater health risks for women, 2001. [Internet]. Available at:

http://www.gao.gov/products/GAO-01-286R.
11. Food and Drug Administration. Risk of next-morning impairment after use of insomnia drugs; FDA requires lower recommended doses for certain drugs containing zolpidem (Ambien, Ambien CR, Edluar, and Zolpimist), FDA Drug Safety Communication, 2013. [Internet]. Available at: http://www.fda.gov/Drugs/DrugSafety/ucm334033.htm.
12. Linder A, Schick S, Hell W, et al. ADSEAT–Adaptive seat to reduce neck injuries for female and male occupants. Accid Anal Prev. 2013;60:334–43.
13. Jakobsson L, Norin H, Svensson MY. Parameters influencing AIS 1 neck injury outcome in frontal impacts. Traffic Inj Prev. 2004;5:156–63.
14. Zarin DA, Tse T, Ide NC. Trial registration at ClinicalTrials.gov between May and October 2005. N Engl J Med. 2005;353:2779–87.
15. Panic N, Leoncini E, de Belvis G, Ricciardi W, Boccia S. Evaluation of the endorsement of the preferred reporting items for systematic reviews and meta-analysis (PRISMA) statement on the quality of published systematic review and meta-analyses. PLoS One. 2013;8:e83138.
16. Schulz KF, Altman DG, Moher D, for the CONSORT Group. CONSORT 2010 statement: updated guidelines for reporting parallel group randomized trials. Ann Int Med. 2010;152:726–32.
17. Plint AC, Moher D, Morrison A, et al. Does the CONSORT checklist improve the quality of reports of randomised controlled trials? A systematic review. Med J Aust. 2006;185:263–67.
18. Kilkenny C, Browne WJ, Cuthill IC, Emerson M, Altman DG. Improving bioscience research reporting: the ARRIVE guidelines for reporting animal research. PLoS Biol. 2010;8:e1000412.
19. International Committee of Medical Journal Editors. Recommendations for the conduct, reporting, editing, and publication of scholarly work in medical journals, updated December 2014. [Internet]. Available at: www.icmje.org/icmje-recommendations.pdf.
20. No authors listed. Taking sex into account in medicine. Lancet. 2011; 378: 1826.
21. Doull M, Runnels VE, Tudiver S, Boscoe M. Appraising the evidence: applying sex- and gender-based analysis (SGBA) to Cochrane systematic reviews on cardiovascular diseases. J Womens Health (Larchmt). 2010;19:997–1003.
22. Doull M, Welch V, Puil L, et al. Development and evaluation of 'Briefing Notes' as a novel knowledge translation tool to aid the implementation of sex/gender analysis in systematic reviews: a pilot study. PLoS One. 2014;9:e110786.
23. Nowatzki N, Grant KR. Sex is not enough: the need for gender-based analysis in health research. Health Care Women Int. 2011;32:263–77.
24. Canadian Institutes of Health Research. Gender, sex and health research guide: a tool for CIHR applicants, 2014. [Internet]. Available at: http://www.cihr-irsc.gc.ca/e/32019.html.
25. NIH policy and guidelines on the inclusion of women and minorities as subjects in clinical research—amended, 2001. [Internet]. Available at: http://grants.nih.gov/grants/funding/women_min/women_min.htm.
26. Nieuwenhoven L, Klinge I. Scientific excellence in applying sex- and gendersensitive methods in biomedical and health research. J Womens Health (Larchmt). 2010;19:313–21.
27. Nature's sexism. Nature [Internet]. 2012;491(7425):495–495. Available from: http://www.nature.com/doifinder/10.1038/491495a.
28. Gendered Innovations in Science, Health & Medicine, Engineering, and Environment. Sex and gender analysis checklists, 2014. [Internet].Available at: http://genderedinnovations.stanford.edu/researchers.html